# Azərbaycanda müasir vergi sistemi formalaşıb

## Bu sistem dövlət-biznes-vətəndaş birliyinə xidmət edir

**Qüdrətli dövlət güclü iqtisadiyyatı olan dövlətdir. Güclü iqtisadiyyat quruculuğunda isə mütərəqqi vergi siyasəti müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanda iqtisadi tərəqqinin bünövrəsinin qurulması, vergi xidmətinin formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə vergi sistemi yeni inkişaf mərhələsinə keçid almışdır.**

Prezident İlham Əliyevin 12 sentyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı" reallaşdırıldı. Dövlət başçısının tapşırığı əsasında ölkədə vergi yükünün azaldılması yolu ilə real sektorun təşviqi haqqında qərar qəbul edildi, vergi qanunvericiliyinə ciddi dəyişikliklər olundu. Görülmüş tədbirlər iqtisadi fəallığın stimullaşdırılmasına təkan verdi, nəticədə müəssisələrin gəlir və mənfəəti, dövlət büdcəsinə vergi daxilolmaları artdı.

Respublikamızın vergi sisteminin modernləşdirilməsi sahəsində ən mühüm nailiyyətlərindən biri Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqi oldu. Bu sistemin işə salınması nəticəsində Azərbaycanın vergi xidməti müasir informasiya texnologiyasına malik xidmətlərdən birinə çevrildi.

2019-cu il oktyabrın 23-də "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi" haqqında Prezident fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) yaradıldı və bununla da vergi inzibatçılığının məzmun və keyfiyyətcə yeni mərhələsi başladı. Vergi sisteminin yeni qlobal reallıqlar fonunda növbəti transformasiyası ilə səciyyəvi olan bu mərhələ vergi siyasətinin ölkə iqtisadiyyatının inkişafında həlledici rolunu önə çəkdi.

Sahibkarlıq mühitinin inkişafı, innovativ yanaşmaların tətbiqi, biznesə dəstəyin təkmilləşdirilməsi, təşviqedici mexanizmlər, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, rəqəmsallaşma, insan resurlarının zənginləşdirilməsi vergi sisteminin əsas fəaliyyət istiqamətlərindəndir.

Qeyri-neft sektorunun inkişafının sənayeləşmə yolu ilə təmin edilməsini nəzərə alaraq sənaye zonalarında qeydiyyatdan keçmiş rezidentlərə əsaslı güzəştlər verildi. Ölkə iqtisadiyyatına xarici investorların marağını artırmaq üçün onlara vergi güzəştləri və yerli şirkətlərlə eyni imtiyazlarından istifadə imkanı yaradıldı. Azərbaycanın böyük uğur salnaməsi olan işğaldan azad edilmiş torpaqların sosial-iqtisadi sistemə effektiv reinteqrasiyası şəraitində Qarabağda müasir sosial və biznes infrastrukturunun yaradılmasına başlandı. Həmin bölgələrdə iqtisadi aktivliyin artırılması üçün sahibkarlara mühüm vergi güzəştləri və təşviqlər verildi. Bu istiqamətdə Vergi Məcəlləsinə bütöv bir fəsil əlavə edildi.

Dövlət Vergi Xidməti dövlət - özəl sektor tərəfdaşlığının dəstəklənməsində də fəal iştirakçıdır. Dövlət Vergi Xidmətinin innovativ brendi olan "ƏDV geri al" layihəsi dövlət-biznes-vətəndaş birliyinin iqtisadi çağırışlara adaptasiyası istiqamətində nümunəvi modeldir.

Beynəlxalq vergitutma sahəsində uğurlar vergi sisteminin son illərdəki nailiyyətlərində mühüm paya malikdir. Məhz bu irəliləyişlərin davamı olaraq



ötən il 2024-2025-ci illər üzrə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidentliyi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə həvalə edildi. Ötən il ölkəmizdə keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində IOTA və DVX-nin birgə təşkilatçılığı ilə Bakıda Karbon Qiymətqoyma üzrə Beynəlxalq Forumda və COP çərçivəsində dayanıqlı iqlim həllərində vergi siyasətinin roluna dair faydalı müzakirələr təşkil edildi.

Dövlət Vergi Xidmətinin fəaliyyətinin bir hissəsi olan bütün bu nailiyyətləri qazanmaq üçün tələb edilən ən dəyərli resurs olan kadr ehtiyatlarının zənginləşdirilməsi vergi orqanlarının fəaliyyətində mühüm yer tutur. Formalaşmış peşəkar komanda ilə burada da gələcəyə baxış olduqca nikbindir. Belə ki, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən qaynaqlanan yeni inkişaf dövrü vergi inzibatçılığının yeni inkişaf modelinə doğru transformasiyası ilə səciyyəvidir.

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, dayanıqlı və inklüziv iqtisadi inkişafın və davamlı iqtisadi artımın təmin edilməsinə yönəlik fəaliyyəti dəstəkləmək məqsədilə "Dövlət Vergi Xidmətinin 2025-2028-ci illər üzrə Strategiyası" hazırlanıb. Strategiyanın konkret istiqamətlərinə könüllü əməletmənin təşviqi, vergidən yayınma ilə effektiv mübarizə, dayanıqlı institusional inkişaf və güclü insan kapitalının formalaşdırılması daxildir.

25 illik təcrübəyə, effektiv komandaya və vahid məqsədlərə dayanaraq vergi sisteminin inkişafı daim yüksək prioritet olaraq qalacaq. Bu inkişaf dövlətimizin tərəqqisinə, dayanıqlı iqtisadiyyatın gücləndirilməsinə, səmərəli biznes mühitinin təkmilləşməsinə, sosial rifaha və qüdrətli Azərbaycanın parlaq gələcəyinə xidmət edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 11 fevral (№ 30).- S.7.